# Ağstafada Hüseyn Arifin və Həmid Abbasın büstlərinin yerləşdiyi ərazi yenidən qurulub

**Ağstafada Xalq şairi Hüseyn Arifin və Əməkdar incəsənət xadimi Həmid Abbasın büstlərinin yerləşdiyi ərazidə aparılan abadlıq-quruculuq işləri yekunlaşmışdır.**



Bununla bağlı keçirilən tədbirdə rayonun rəhbərliyi və ictimaiyyət nümayəndələri, o cümlədən mədəniyyət və incəsənət işçiləri iştirak etmişlər. Əvvəlcə hər iki büstün önünə gül dəstələri düzülmüş, xatirələri yad edilmişdir. Sonra rayon icra hakimiyyətinin başçısı Seymur Orucov, rayonun tanınan mədəniyyət işçiləri Oruc Mansurov və Gülgün Kərimov, yerli şairlər, Saqif Qaratorpaq və Rüfət Axundov hər iki qələm sahibinin həyat və yaradıcılığından, onların ölkə incəsənətinə və ədəbiyyatına verdikləri töhfələrdən söz açmışlar.

Tədbir məktəblilərin təqdimatında Hüseyn Arif və Həmid Abbas yaradıcılığına həsr olunmuş ədəbi-bədii kompozisiya ilə başa çatmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 9 yanvar (№ 3).- S.11.